# MÜSTƏQİLLİYİMİZİN QƏHRƏMANLIQ ZİRVƏSİ

## Qəbələ ictimaiyyəti 20 Yanvar Ümumxalq Hüzn Gününün ildönümünü qeyd etdi

1990-cı ilin soyuq 20 Yanvar günü ölkəmizin tarixinə qanla yazılmış səhifədən 28 il keçir. Zaman bizi bu tarixdən nə qədər





uzaqlaşdırsa da 20 Yanvar xalqımızın bu günkü və gələcək nəsilləri tərəfindən heç vaxt unudulmayacaq. 20 Yanvarda xalqımızın başına böyük fəlakət gətirməklə düşmənlərimiz onun diz çökməsinə, azadlıq mübarizəsindən geri çəkilməsinə nail ola bilmədilər. Əksinə, 20 Yanvarla xalqımızın öz azadlığı üçün hər cəfaya dözməyə hazır olan mübariz bir xalq olduğu bütün dünyaya bəlli oldu. Buna görə də biz 20 Yanvar hadisələrini hüznlə anarkən eyni zamanda həmin günü tariximizin şərəfli bir günü kimi xatırlayırıq.



20 Yanvar faciəsinin ildönümü ölkəmizin hər yerində olduğu kimi rayonumuzda da geniş qeyd olunub. 20 Yanvarın idldönümünü qeyd etmək və bu hadisənin əsl mahiyyətini gənc nəslə çatdırmaq üçün rayon icra hakimiyyəti tərəfindən geniş tədbirlər planı hazırlanıb. Hələ yanvarın əvvəlindən başlayaraq rayonun bütün yaşayış məntəqələrində, idarə və müəssisələrində, məktəblərdə, özəl təşkilatlarda 20 Yanvara həsr olunmuş tədbirlər keçirilib. Yanvar ayının 19-da ümumtəhsil və peşə təhsili məktəblərində ilk dərslər 20 Yanvar faciəsinə həsr olunmuşdur.

Rayondakı mədəni-maarif müəssisələrində 20 Yanvar faciəsinin iyirmi səkkizinci ildönümü ilə əlaqədar ədəbi-bədii kompozisiyalar təşkil olunub, sənədli filmlər nümayiş etdirilib. Məscidlərdə 20 Yanvar faciəsi və Vətənimizin ərazi bütövlüyü uğrunda şəhid olan qəhrəman oğul və qızlarımızın xatirəsinə həsr olunmuş dini mərasimlər keçirilib.

Yanvarın 20-də yerli vaxtla saat 12-də şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, avtomobillər vasitəsilə səs-siqnalları verilib. Hüzn əlaməti olaraq Qəbələ şəhərində, qəsəbə və kəndlərdə, idarə və müəssisələrdə dövlət bayraqları endirilib.

20 Yanvar Ümumxalq Hüzn Gününün əsas tədbiri Qəbələ şəhərində əzəmətli memarlıq üslübü ilə tikilmiş Şəhidlər Xiyabanında keçirilib. Həmin gün Qəbələ rayon ictimaiyyətinin çox minlik nümayəndələri, əmək kollektivləri, rayonun rəhbər işçiləri şəhərimizdə 20 Yanvar və Qarabağ müharibəsi şəhidlərinin xatirəsinin ucaldılmış abidə kompleksinin—şəhidlər xiyabanının önünə toplaşmışdılar.

Saat 11-də Qəbələ Rayon İcra Hakimiyyətinin rəhbər işçiləri birinci olaraq şəhidlər xiyabınındakı abidə kompleksinə təmsil etdikləri orqanın adından əklil qoydular. Sonra Qarabağ uğrunda döyüşlərdə şəhid olan igid oğullarımızın xiyabanda olan məzarları və şəhidlərin xatirəsinə qoyulmuş xatirə lövhələri önünə də gül-çiçək dəstələri düzüldü, onlar ehtiramla yad edildi.

Rayondakı digər idarə və müəssisələrin, təhsil, səhiyyə, mədəni-maarif ocaqlarının kollektivləri, ictimaiyyət nümayəndələri gün boyunca şəhidlər xiyabanını ziyarət etdi.

Şəhidlər xiyabanını ziyarət edən hər bir insanın üzündə hüznlə bərabər qürur hissi də vardı. Çünki, 20 Yanvarda və Qarabağ uğrunda döyüşlərdə şəhid olan hər bir vətən oğlu əsil qəhrəmanlıq, fədakarlıq nümayiş etdirərək Vətənin azadlığı və ərazi bütövlüyü uğrunda canından belə keçməyə hazır olduğunu sübut etmişdir. Həqiqətən də bu cür vətən övladları üçün ancaq yas tutmaq azdır, onlarla qürur duymaq xalqımızın haqqıdır.

**Qüdrət SƏMƏDOV,**
**İlkin Vəlizadə (foto).**
**«Qəbələ»**

## İstiqlaliyyətimizin şanlı səhifəsi

***20 Yanvar Azərbaycan tarixində qanla yazılmış bir səhifədir, ancaq o, təkcə faciə deyil. Bu tarix Azərbaycanın istiqlal yolunun ilk zirvəsi, milli məfkurəmizin azadlıq istəyinin oyanış günü idi. Bu, uzun illər Sovet İmperiyasının əsarətində yaşayan xalqın azadlıq səsini ucaltdığı, öz suverenliyi uğrunda cəsarət nümayiş etdirdiyi şərəfli bir tarixdir. Bu tarix həm də kimin kim olduğunu sübut edən növbəti imtahan idi.***

Xalq o günlərdə böyük bir həqiqəti - həqiqi liderin meydanda olmamasını da bütün mahiyyəti ilə dərk etdi. O müdhiş günlərdə Heydər Əliyevin - qüdrətli liderin vətəndə yoxluğu günün ən böyük həqiqəti kimi dərk olundu. 20 Yanvar günündə xalqının səsinə hər kəsdən əvvəl səs verən də Heydər Əliyev oldu. Azərbaycana gəlməsinə qadağa qoyulmuş ümummilli liderimiz Moskvada xüsusi nəzarət altında ola-ola, özünün və ailə üzvlərinin həyatını açıq təhlükə qarşısında qoyaraq, hadisələrdən dərhal sonra, 1990-cı il yanvarın 21-də oğlu, silahdaşı, o çətin günlərdə atasını bir an belə tək qoymayan İlham Əliyevlə birlikdə ölkəmizin Moskvadakı daimi nümayəndəliyinə gəldi, dinc əhaliyə qarşı təcavüzə kəskin etirazını bildirdi, faciəni törədənləri, şəxsən M. S. Qorbaçovu kəskin ittiham etdi, qoşunların Bakıdan çıxarılmasını tələb etdi.

Ulu öndər Heydər Əliyev xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra bu məsələ yenidən gündəmə gəldi, 20 yanvar hadisələrini lazımınca qiymətləndirmək yolunda ciddi addımlar atıldı. 1990-cı il noyabrın 21-də böyük siyasi xadim Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 20 Yanvar faciəsi ilə bağlı tarixi qərar qəbul etdi.

Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin 5 yanvar 1994-cü il tarixli fərmanı ilə Milli Məclisə 20 Yanvar hadisələrinə tam siyasi-hüquqi qiymət verilməsi tövsiyə olundu. Milli Məclisdə müzakirələrin yekunu olaraq 1994-cü il martın 29-da "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" qərar qəbul edildi. Qərarda, 1990-cı ilin qanlı 20 Yanvar faciəsinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verildi. Məhz ulu öndərin sərəncamı ilə 20 Yanvar Ümumxalq Hüzn Günü elan olundu.

Bu gün Prezident İlham Əliyev də müharibə veteranlarının, şəhid ailələrinin, əlillərin problemlərinin dövlət səviyyəsində həllini mühüm vəzifələrdən biri kimi qarşıya qoyub. Ölkəmizdə bu istiqamətdə böyük tədbirlər həyata keçirilir. Şəhid ailələrinin, əlillərin sosial təminatı ildən-ilə daha da möhkəmləndirilir, şəhidlərin xatirəsinin əbədiləşdirilməsi, faciə qurbanlarının ailələrinin problemlərinin həlli, sağlamlığının bərpası istiqamətində mühüm işlər görür.

Bu gün xalqımız 20 Yanvar hadisələrinin 28-ci ildönümünü qeyd edir, igid övladlarının fədakarlığını məhəbbətlə xatırlayır, onların əziz xatirəsini böyük ehtiramla yad edir. Bu qədirbilənlik həm də o deməkdir ki, az keçməyəcək Qarabağda da eyni mətinliklə Qələbə qazanacağıq.

Böyük qələbəyə Azərbaycanın hərtərəfli uğurları, bütün dünyada gündən-günə artan nüfuzu, dövlət başçımız, Ali Baş Komandan, Prezident İlham Əliyevin bu istiqamətdə qətiyyətli addımları zəmanət verir.

**"Qəbələ"**

### *QƏBƏLƏ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ 2018-ci İLİN FEVRAL AYINDA YERLƏRDƏ KEÇİRƏCƏYİ GÖRÜŞ-QƏBULLARIN QRAFİKİ*

| Tədbirin keçiriləcəyi yaşayış məntəqəsinin adı (şəhər qəsəbə, kənd) | Tarix | Görüşün keçiriləcəyi yer və vaxtı |
|---|---|---|
| Xırxatala kəndi | 06.02.2018 | Kənd məktəbi, saat $15^{00}$ |
| Seyidqışlaq kəndi | 13.02.2018 | Kənd məktəbi, saat $15^{00}$ |
| Zarağan kəndi | 20.02.2018 | Kənd məktəbi, saat $15^{00}$ |
| Yeni Dizaxlı kəndi | 27.02.2018 | Kənd məktəbi, saat $15^{00}$ |

Qəbula təhsil, səhiyyə müəssisələrinin, hüquq-mühafizə orqanlarının, məşğulluq, gigiyena və epidemiologiya mərkəzlərinin, dövlət sosial müdafiə fondunun, poçtamtın, telekommunikasiya qovşağının, elektrik şəbəkəsinin, yol-istismar, baytarlıq, qaz-istismar, suvarma sistemləri, meşələrin bərpası və mühafizəsi idarələrinin rəhbərləri dəvət olunurlar.

## İcra nümayəndələri hesabat verir

***«Yerli İcra hakimiyyətləri haqqında" Əsasnamənin tələblərinə uyğun olaraq Qəbələ Rayon İcra Hakimiyyəti başçısının şəhər, qəsəbə və kənd inzibati ərazi dairəsi üzrə nümayəndələrinin hesabat yığıncaqları keçirilir.***

İcra nümayəndələrinin 2017-ci ildə ərazidə görülmüş işlər və qarşıda duran vəzifələrə dair məruzələrinin dinlənildiyi hesabat yığıncaqlarında rayon icra hakimiyyəti başçının müavinləri, RİH başçısı yanında Şuranın üzvləri, aparatın şöbə müdirləri və digər məsul işçiləri iştirak edirlər.

Yanvarın 5-dən başlanan hesabat iclaslarında bu günədək rayonun 45 inzibati ərazi nümayəndəliyinin hesabatı dinlənilib.

Hesabat yığıncaqları davam edir.

**Rasim ƏZİZOV,**
**RİH-nin ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin baş məsləhətçisi.**